| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 01.05.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1100-VQD |
| **ADI** | "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 01-07-2018, Nəşr nömrəsi: 143), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2018, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 1159) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.07.2018 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.320.030 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201805011100 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 28.06.2018 |

**“Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 10-cu bəndlərini rəhbər tutaraq, “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994,   17, maddə 235; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997,   3, maddə 226,   5, maddə 379; 2001,   11, maddələr 676, 683; 2004,   6, maddə 397; 2005,   1, maddə 5,   8, maddə 684; 2006,   11, maddə 922; 2007,   5, maddə 437,   11, maddə 1049; 2010,   3, maddə 171; 2012,   7, maddə 672; 2013,   1, maddə 17; 2014,   10, maddə 1172; 2018,   1, maddə 6) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adına “xitam verilməsi” sözlərindən sonra “və ya fəaliyyətinin dayandırılması” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Hərbi vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan həmkarlar ittifaqları təşkilatlarının fəaliyyəti hərbi vəziyyət başa çatanadək dayandırıla bilər.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 may 2018-ci il
1100-VQD